**Siyasi məhbusların müdafiəsi ilə məşğul olan vəkil saxlanlaraq dindirilib**

İnsan hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış və onlarla siyasi məhbusun vəkili olan vəkil Fariz Namazlı avqustun 31-də Bakı vaxtı ilə saat 21 radələrində dostlarıyla kafedə olduğu zaman saxlanılıb, Dövlət Təhlükəsizlik Xidmətinə aparılıb və 3 saatdan artıq orada şahid qismində dindirilib. Onun saxlanılması ictimailəşəndən sonra o, sərbəst buraxılıb.[1]

Sentyabrın 1-də vəkilin özü sosial media hesabında açıqlama yayaraq DTX-da sorğulanan bir cinayət işi üzrə şahid qismində dindirildirildiyini təsdiqləyib və əlavə edib ki, dindirildiyi cinayət işi barədə hər hansı bilgi verə bilməyəcək.

Fariz Namazlı bildirib ki, o şahid qismində dindirilsə də, onu şübhəli şəxsləri apardıqları kimi aparıblar.

Fariz Namazlının fikrincə, öncədən heç bir çağırış olmadan, iş vaxtından sonra saxlanılması, telefonunun əlindən alınması tutulmağa bərabərdir.

Fariz Namazlı yerli mediaya deyib ki,  əgər onu şahid kimi dindirilməyimə zərurət vardısa, iş vaxtında, öncədən onu məlumatlandırmaqla DTX-ya dəvət edə bilərdilər. "Məni tutub aparıblar, telefonumu götürüblər. O müddətdə telefonum DTX əməkdaşlarında olub. Mən şahid qismində dindirilsəm də, şübhəli şəxs kimi aparılmışam. Mənə qarşı baş verənlər, əslində, tutulmağa bərabərdir", o qeyd edib.

Vəkil DTX əməkdaşlarına məxsus avtomobildə, onların əhatəsində aparılıb. O deyir ki, oraya çatanadək niyə aparıldığını bilməyib və tutulduğunu düşünüb.

Fariz Namazlı əvvəllər də indi də siyasi məhbusların vəkili olub.

Azərbaycanda əvvəllər də siyasi məhbusların vəkillərinə qarşı təzyiqlər olub. Hakimiyyət müxtəlif yollarla müstəqil vəkilləri siyasi məhbusların müdafiəsindən kənarlaşdırmağa çalışır. Fariz Namazlıya qarşı edilənlər də onun vəkillik fəaliyyəti və siyasi motivli həbs edilənlərin müdafiəsində iştirakla bağlıdır.

Fariz Namazlı saxlanılmasının qanunsuz hesab edərək məhkəməyə müraciət edib.[2] Onun şikayəti üzrə sentyabrın 24-də Səbail Rayon Məhkəməsində hazırlıq iclası keçirilib. Hakim Azər Tağıyev şikayəti icraata götürüb araşdırmaqdan imtina edib. Vəkil bu qərardaddan apellyasiya şikayəti verib.

Vəkil məhkəməyə şikayətində Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci (azadlıq və toxunulmazlıq hüququ), 8-ci (şəxsi həyata hörmət hüququ), 18-ci (hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) maddələrinin pozuntusunun tanınmasını istəyib.

Bakı Apellyasiya Məhkəməsi oktyabrın 7-də hakim Mirəzli Abbasovun sədrliyi ilə vəkil Fariz Namazlının Dövlət Təhlükəsizliyi Xidmətindən (DTX) şikayətinə Səbail rayon Məhkəməsinin baxmaqdan imtina etməsi barədə şikayətini təmin edib.

---

[1] https://turan.az/en/politics/lawyer-fariz-namazly-detained-784135
[2] https://www.amerikaninsesi.org/a/7796356.html

Apellyasiya məhkəməsi Səbail Rayon Məhkəməsinin qərarını əsassız sayıb. Şikayətə mahiyyəti üzrə baxılması üçün yenidən Səbail Rayon Məhkəməsinə qaytarıb[3].

"Mən şikayətimə mahiyyəti üzrə baxılmasını istəyirəm. Bu mənada Səbail Rayon Məhkəməsinin işə mahiyyəti üzrə baxmadan şikayətimi geri qaytarması qanunsuzdur. Səbail Rayon Məhkəməsi şikayətə mahiyyəti üzrə baxmadan geri qaytarıb və yazıb ki, şikayət məhkəmə nəzarətinin predmeti deyil. Mən də şikayət vermişdim ki, Səbail Rayon Məhkəməsi işə mahiyyəti üzrə baxmalıdır", o qeyd edib.

**1 Sentyabr 2024-cü ilə növbədənkənar Parlament seçkiləri keçirilib**

Sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirilib. 1 sentyabr növbədənkənar parlament seçkisi sonuncu prezident seçkisindən 6 ay sonraya təsadüf etsə də, ötən müddətdə seçki qanunvericiliyi və seçki təcrübəsinin təkmilləşdirilməsi, seçki şikayətlərinin araşdırılması barədə yerli və beynəlxalq müşahidəçilər, o cümlədən ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun əvvəlki tövsiyyələrini öyrənmək və icra etmək üçün Azərbaycan hakimiyyəti siyasi iradə nümayiş etdirməyib.

1 sentyabr 2024-cü il növbədənkənar parlament seçkisi ərəfəsində ölkədə siyasi azadlıqların müdafiəsi yönündə böhran daha da dərinləşib, ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqlarına məhdudiyyətlər aradan qalxmayıb, əksinə siyasi motivli həbslərin sayı daha da artıb. Müstəqil vətəndaş cəmiyyəti qurumları və müstəqil medianın fəaliyyətinə qadağalar, habelə jurnalistlər və ictimai fəallara qarşı misli təqiblər çoxalıb.

Xüsuslilə, 7 fevral 2024-cü ildə keçirilən prezident seçkisində fəallıq göstərən, seçkilərin müşahidəsini həyata keçirərək ictimaiyyəti alternativ hesabat və məlumatlarlarla təmin edən ölkədə ən böyük seçki müşahidə təşkilatının rəhbəri Anar Məmmədli həbs edilib.

2020-ci ildə keçirilmiş sonuncu növbədənkənar Parlament seçkilərindən fərqli olaraq siyasi partiyalar, müstəqil namizdələrin seçkilərdə aktivliyi müşahidə edilməyib. Əvvəlki seçkilərə qatılmış müstəqil namizədlərin demək olar ki, heç biri bu seçki marafonuna qoşulmayıb. Ölkənin ən böytük partiyası Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) seçkiləri boykot edib. Müsavat partiyası isə az sayda təmsilçi ilə seçkidə iştirak qərarı verib. Partiyanın liderləri seçkidə namizdliklərini irəli sürməyib. Ümid, Azərbaycan Demokrat Partiyası (ADP), Vətəndaş Həmrəyliyi partiyası, Vəhdət partiyasının rəhbərləri seçkilərdə iştirak etmək istəməyiblər. Partiya digər namizədlərlə seçkiyə qatılıb.

Vətəndaş cəmiyyəti qurumları və siyasi partiyaların 1 sentyabr növbədənkənar parlament seçkisində fəal iştirakı üçün demokratik mühit olmayıb. 2020-ci il fevralında keçirilmiş sonuncu parlament seçkilərində müşahidə olunan aktivlik qeydə alınmayıb. Həmin dövrdə 1637 namizəd[4] qeyd alınmış olsa da 1 sentybar 2024-cü seçkilərində qeydə alınan namizədlərin sayı 900 nəfər olub.

[3] https://turan.az/en/politics/appellate-court-returns-lawyers-complaint-against-the-state-security-service-to-sabail-district-court-785537
[4] Lakin yanvarın 31-dək olan dövrdə onlardan 312-si namizədliyini geri götürüb.

Müstəqil müşahidəçilər bəzi seçki məntəqələrində seçici fəallığı üzrə göstəricilərin rəsmi rəqəmlərdən xeyli fərqləndiyini qeydə alıblar. Bu cür uyğunsuzluqlar bəzi seçki məntəqələrində bir şəxsin dəfələrlə səsverməsi və seçki qutularına toplu bülletenlərin atılması halları nəticəsində seçici fəallığının süni şəkildə şişirdildiyini iddia etməyə əsas verir.

Müstəqil ekspertlərin rəyinə görə 1 Sentyabr 2024-cü il növbədənkənar parlament seçkiləri əlverişli demokratik siyasi mühit və həqiqi siyasi rəqabət şəraitinin çatışmaması ilə müşayiət olunaraq, azad və ədalətli seçkilər üzrə milli qanunvericiliyin və beynəlxalq standartların tələblərinə cavab verməyib. Seçkilər çoxsaylı qanun pozuntuları ilə müşahidə olunub. ATƏT DTİHB SMM də seçkilərin nəticlərini mənfi qiymətləndirib[5].

**Deputatlığa namizəd olmuş müəllimə işdən çıxarılıb**

82 saylı İmişli-Saatlı seçki dairəsindən Milli Məclisə deputatlığa keçmiş namizəd Leyla Nəcəfquliyeva müəllimə işlədiyi İmişli rayonunun Aranlı kəndində orta məktəb müəllimi olaraq işdən çıxarılıb. [6]O hesab edir ki, işdən çıxarılması seçkilərdə fəallığı ilə bağlıdır.

Elm və Təhsil Nazirliyi Mil-Muğan regional şöbəsinin 17 sentyabr tarixli əmrində bildirilir ki, müəllimin məktəb direktorunun göstərişlərinə "tabe olmaması", "məktəblilərin dərslərə gəlməməsinə təsir göstərməsi", "rəhbərliyin razılığı olmadan dərsi məktəb binasından kənarda keçməsi", "Tik-Tok"da videolar yayması, uşaqlardan öz şəxsi məqsədləri üçün istifadə etməsi "Müəllimin Etik Kodeksi"nin tələblərinə kobud şəkildə ziddir.

Onun işdən çıxarılması yerli Həmkarlar İttifaqı ilə razılaşdırılıb.

Lakin Nəcəfquliyevaya seçki kampaniyasında iştirakı zamanı ona təzyiq olunub. Ondan namizədliyini geri çəkməsi tələb olunub, amma o bunu etməyib.

Rəsmi məlumatlara görə Leyla Nəcəfquliyeva seçkidə 1139 səs toplayaraq 4-cü yerdə olub. [7]Amma ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun və ATƏT Parlament Assambleyasının Seçki Müşahidə Missiyası 1 sentyabr seçkiləri ilə bağlı mənfi rəy bildirib.

Müəllim işdən çıxarılmasının digər səbəbi kimi sosial mediadakı fəaliyyətini görür. O, Aranlı kənd məktəbində neqativ hallarla bağlı problemləri davamlı olaraq işıqlandırıb.

2023-cü ildə Nəcəfquliyeva məktəbin köhnə binasında sanitar qovşağın olmadığını bildirib, bundan sonra iki il ərzində Aranlı kəndində yeni bina tikilib. Lakin Heydər Əliyev Fondunun inşa etdiyi yeni məktəb binasında su olmayıb və müəllimə üçüncü sinifdə birinci dərsi sentyabrın 16-da məktəbin həyətində keçirməli olub. O, video çəkib və şəbəkələrdə yayımlayıb. Bu onun işdən çıxarılmasının rəsmi səbəbi olub.

Nəcəfquliyeva yayda peşəyə yararlılıq üzrə ixtisas imtahanlarından uğurla keçib.

Bundan başqa Leyla Nəcəfquliyeva QHT sahəsi ilə də əməkdaşlıq edib. O yaşadığı bölgədə icma quruculuğu, gender bərabərliyi, məişət zorakılığı üzrə də çalışıb.

---

[5] https://www.osce.org/files/f/documents/f/4/575497.pdf

[6] https://turan.az/en/politics/candidate-for-deputy-dismissed-in-imishli-785210

[7] https://www.infocenter.gov.az/archive/MilliMeclis2024.aspx?i=5&dsk=82

Vətəndaş Hüquqları İnstitutu ictimai təşkilatının sədri, seçki eksperti Bəşir Süleymanlı bildirib ki, namizədin sentyabrın 17-də işdən çıxarılması qanuna ziddir, çünki Mərkəzi Seçki Komissiyasının qərarı ilə namizədlərin toxunulmazlığı sentyabrın 21-dək uzadılıb. O, Leyla Nəcəfquliyevanın məhkəməyə şikayət etməsini düzgün hesab edir.

Leyla Nəcəfquliyeva 1 sentyabr 2024-cü ildə keçirilmiş növbədənkənar Parlament seçkilərində namizəd olub. Seçki Məcəlləsi isə deputatlığa namizədin işdən çıxarılmasını qadağan edir.

Seçki Məcəlləsinin 70.3-cü maddəsində bildirilir ki,  bu Məcəllənin 70.1-ci maddəsində göstərilən müddətdə qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının onların vəzifəli şəxslərinin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla bilməz və ya razılığı olmadan başqa işə, başqa yerdə işləməyə (oxumağa, xidmət keçməyə) keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz, hərbi xidmətə və ya toplanışa çağırıla bilməz. Qeydə alınmış namizədin seçkilərdə iştirakı müddəti, qeydə alındığı gündən başlayaraq, işlədiyi ixtisas üzrə əmək stajına daxil edilir.

Həmin Məcəllənin 70.4-cü maddəsinə görə, qeydə alınmış namizəd bu Məcəllənin 70.1-ci maddəsində göstərilən müddətdə müvafiq prokurorun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz. Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə, müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı seçki komissiyasını bu barədə dərhal xəbərdar edir.

Namizədlik statusu isə Konstitusiya Məhkəməsinin qərarınadək qüvvədədir. Konstitusiya Məhkəməsi isə sentyabrın 21-də- Leyla Nəcəfquliyeva işdən çıxarılandan 4 gün sonra sentyabrın 1-də Milli Məclisə keçirilmiş növbədənkənar seçkilərin nəticələrini təsdiqləyib.[8]

[8] https://turan.az/en/politics/constitutional-court-approves-parliamentary-election-results-784900